# Yeniyetmələrin formalaşmasında sosial şəbəkələrin rolu

**Hafizə Quliyeva**
*fəlsəfə doktoru proqramı üzrə doktorant,*
*Azərbaycan Turizm və Menecment Universiteti*
**E-mail:** hafiza.guliyeva84@gmail.com

**Rəyçilər:** s.ü.f.d. A. Bağırlı,
f.ü.f.d. E. Bayramzadə

**Açar sözlər:** cəmiyyət, yeniyetmələr, internet, sosial şəbəkələr, sosial normalar, deviant davranış, sosionormativ sistem

**Ключевые слова:** общество, подростки, интернет, социальные сети, социальные нормы, девиантное поведение, соционормативная система

**Key words:** society, teenagers, internet, social networks, social norms, deviant behaviour, socionormative system

Müasir dövrümüzdə yeniyetmələri sosial şəbəkələrdən kənarda təsəvvür etmək demək olar ki, mümkünsüzdür. "Sosial şəbəkə" termini elmi leksikona ilk dəfə 1954-cü ildə ingilis sosioloqu Barn tərəfindən daxil edilib. O zamanlar sosial şəbəkə deyəndə sosial obyektlərdən ibarət qovşaqları birləşdirən struktur nəzərdə tutulurmuş.

"Facebook", "İnstagram", "Twitter", "Odnoklassniki.ru", Vkontakte" və s. kimi sosial şəbəkələr yeniyetmələrin şüurunu o qədər məşğul edib ki, demək olar ki, onlar arasında hazırda təsadüfi tanışlıq belə qalmayıb və bütün ünsiyyət və tanışlıq internet vasitəsilə həyata keçirilməyə başlayıb.

Ümumiyyətlə, qeyd edək ki, müasir dövrümüzdə sosial şəbəkələrin yeniyetmələrin sosiallaşması prosesinə və şəxsiyyətinin formalaşmasına təsiri olduqca böyükdür. Yeniyetmələrin vaxtlarının çox hissəsini internetdə keçirmələri, oyunlara, virtual ünsiyyətə, tanışlığa üstünlük verməmələri, həmçinin də əksər sosial şəbəkələrdə qeydiyyatda olmaları təbii ki, onların şəxsiyyətinə öz mənfi təsirini göstərməkdədir [3, s. 131].

XXI əsrdə cəmiyyətimiz böyük dəyişikliklərlə xarakterizə olunur ki, bunlar da yeni informasiya-kompüter və telekommunikasiya texnologiyalarının sosial proseslərə daxil olması ilə şərtlənmişdir. Sosial reallığın dəyişilməsində əsas rol İnternetin üzərinə düşür. Onun inkişafı yeni sosial təcrübələrin meydana çıxmasına səbəb olur. Sosial şəbəkələrdən daha çox yeniyetmə və gənclərin istifadə etdiyini də nəzərə alsaq, qeyd edə bilərik ki, çox vaxt internetin yeniyetmələr üzərində təsiri müsbət deyil. Sosial şəbəkələrin yeniyetmələrin sosiallaşmasına göstərdiyi təsiri öyrənmək üçün anket vasitəsilə sosioloji tədqiqatlar aparmışıq. Tədqiqatda Bakı şəhəri 72 saylı orta məktəbin 7 və 8-ci sinif şagirdləri iştirak etmişdir. Tədqiq olunanların yaş həddi yeniyetməlik yaş dövrünə uyğun seçilmişdir: 11 yaş - 30 nəfər, 12 yaş -15 nəfər, 13 yaş - 35 nəfər, 14 yaş - 20 nəfər olmaqla cəmi 100 nəfər sorğuda iştirak etmişdir. Tədqiqatın nəticələri aşağıdakı kimi olmuşdur:

1. Sosial şəbəkələrdə qeydiyyatdan keçmisinizmi? Bəli- 91%, xeyr - 9%
2. Hansı sosial şəbəkələrdə qeydiyyatdan keçmisiniz? Facebook - 86%, Twitter - 11%, İnstagram - 83%, Vkontakte - 5%.
3. Sosial şəbəkələrdən hansı məqsədlə istifadə edirsiniz? Dostlarla ünsiyyət məqsədilə - 92%, oyun oynayıram - 39%, məlumat əldə edirəm - 54%.

4. Sizcə, sosial şəbəkələrin üstünlüyü nədir? Uzaq məsafələrdən əlaqə yaratmaq - 47%, ünsiyyətin asan olması- 19%, məlumatların sürətli əldə edilməsi -34%.

5. Sosial şəbəkələrin çatışmazlığı nədir? Vaxt aparır - 82%, sağlamlığa zərərlidir - 18%.

Yeniyetmələrin sosial şəbəkələrdə olması tezliyini və müddətini isə biz müşahidə vasitəsilə öyrənə bilmişik. Belə ki, tədqiq olunan 100 yeniyetmədən 22%-i sosial şəbəkələrdən 1 saatdan az müddətə istifadə etmişdir, qalan 71% isə sosial şəbəkələrdə 3-4 saatdan da çox vaxt keçirmişdir. Qeyd etmək lazımdır ki, onlar daha çox axşam və gecə saatlarında "aktiv" olmuşlar.

Apardığımız sosioloji analiz nəticəsində sosial şəbəkələrin yeniyetmələr üzərində 7 müsbət və 11 mənfi təsirini aşkar etdik. Bu mənfi təsirlər sırasında qorxuları (fobiyalar), ünsiyyət çatışmazlığını, savadlılıq səviyyəsinin aşağı enməsini, internetdən patoloji asılılığı, təlimdə geriqalmanı, əqli yorğunluğu, həyat keyfiyyətinin aşağı enməsini və s. misal göstərmək olar. Bundan əlavə, yeniyetmələrin əksəriyyəti tanımadıqları yad insanları da dostluğuna qəbul edirlər ki, bunun da nəticəsində potensial olaraq internet-fırıldaqçılarının qurbanlarına çevrilə bilirlər. Sosial şəbəkələr demək olar ki, yeniyetmələr üçün bütün sosializasiya institutlarını - ailəni, məktəbi və hətta dostlarını da əvəz etməyə başladı [1, s. 13-21].

Bundan əlavə, yeniyetmələrin şəxsiyyətin formalaşması dövründə bütün vaxtlarını sosial şəbəkələrdə keçirmələri faktı onu göstərir ki, gələcəkdə onların əksər hissəsi lazımı ünsiyyət bacarıqları əldə etməyəcəkdir. Onlarda real insanlarla ünsiyyətdə qorxular meydana çıxa bilər ki, bu da gələcəkdə patoloji asılılığın növlərindən birinə çevrilə bilər. Hazırda elmdə bu asılılığı kiberasılılıq adlandırırlar və bu hal mif deyil, acı reallıqdır. Yeniyetmələr real dünya ilə get-gedə əlaqələrini itirir və virtual dünyada olmağa başlayırlar. Onlar anlamırlar ki, sosial problemlərdən qaçıb kiber dünyaya sığınmaqla onlar bu problemi həll etmirlər, sadəcə müvəqqəti olaraq ağır həqiqətlərdən uzaqlaşa bilirlər. Daha sonralar onların real dünyaya qayıtmaları isə get-gedə daha ağır və çətin olacaqdır [2, s. 11]. Jestlərimizin, mimika və ifadələrimizin virtual olduğu bir mühitdə "nə dərəcə doğru bir ünsiyyət qura bilərik, qarşımızdakına necə güvənə bilərik" sualına sosial şəbəkə istifadəçiləri hazır olmalıdırlar.

Sosial şəbəkələrdə vaxt keçirən bütün yeniyetmələr internet-mədəniyyətinin təsirinə məruz qalırlar. Onların lüğət ehtiyatı azalır, dilləri təhrif olunur, leksik ehtiyatları düzgün olmayan sözlərlə dolmağa başlayır və nitqləri qrammatik səhvlərlə dolu olur ki, onlar real ünsiyyətdə də bu səhvlərdən qaça bilmirlər. Bir çox ailə övladının həddindən çox internet istifadə etdiyindən və oyun oynadığından şikayətlənir. Bunun tədbiri kiçik yaşlarda alınmalıdır. Çünki yetkinlik dövründə problemi həll etmək bir az daha iradə istəyəcək.

Sosial şəbəkələrin təsiri altında yeniyetmələr özünüinkişaf haqqında unudur, bütün günü evdə oturur və bununla da öz sağlamlıqları və təlimləri, hətta günü gündən uzaqlaşdıqları cəmiyyətin bir parçası olduqları haqqında unudurlar. Valideynin diqqətindən kənarda qalan yeniyetmələr özlərinə nəzarət edə bilmir, "1 dəqiqə baxım, çıxıram" kimi bəhanələrlə sosial şəbəkələrə daxil olub bütün günlərini orda keçirirlər. Beləliklə, sosial şəbəkələr onlar üçün "dayə" rolunu oynayır və ən dəhşətlisi də budur ki, bu "dayə" heç də müsbət tərbiyəçi hesab olunmur. O, yeniyetmələrə böyüklərə hörmət etməyi, gələcək haqqında düşünməyi öyrətmir və əksər hallarda onun beynini lazımsız informasiya ilə doldurur. Nəticədə isə yeniyetmə məktəbdə pisi və yaxşını ayırd edə bilmir və hər şeyi süngər kimi özünə çəkir [5, s. 19-26].

Sosioloqlar qeyd edir ki, yeniyetmələr sosial şəbəkələrdə çox vaxt keçirdikcə onların kitaba ayırdıqları zaman daha da azalır. Yeniyetmələrdə sosial şəbəkələrdən asılılıq dərəcəsini öyrənmək üçün kiçik tədqiqat apardım. Tədqiqatın nəticələrini ümumiləşdirərkən

yeniyetmələrin sosial şəbəkələrdən asılılığının aşağıdakı əlamətləri diqqətimi cəlb etdi :

— Yeniyetmə sosial şəbəkələrdə keçirdiyi vaxta nəzarət edə bilmir. Onlar buraya sərf etdikləri vaxtı azaldacaqlarına söz versələr də, bunu etmələrinə iradə gücləri kifayət etmir.

— Onlar sosial şəbəkələrdə keçirdikləri müddət barədə yalan danışırlar; ya vaxtı olduğundan az deyir, ya da tapşırıqla bərabər gördüyü digər işləri gizlədirlər (məsələn, referat yazdığını deyir, amma əslində bu müddət ərzində internetdə oyun oynayır və ya dostları ilə söhbət edir).

— Sosial şəbəkələrdə keçirdikləri uzun müddət nəticəsində onun yaratdığı mənfi təsirlərdən əziyyət çəkir (məsələn, baş ağrıları, göz ağrıları və s. kimi).

— Sosial şəbəkələrin öz həyatındakı rolunu olduğundan artıq qiymətləndirir, onun yaratdığı problemləri görmür və ətrafdakıların tənqidi qiymətləndirmələrinə diqqət yetirmirlər.

— Sosial şəbəkələrdən istifadəyə görə qarışıq hislər keçirirlər: ya burada həddindən çox vaxt keçirdikləri üçün, ya da sosial şəbəkələrdə ünsiyyət zamanı anormal davranışlarına görə günahkarlıq hissi keçirirlər.

— Virtual ünsiyyət və aktivliklə yüklənirlər

— Sosial şəbəkələri problemlərdən qaçış və yaxud da real həyatdakı qeyri-adekvatlıq hissindən qorunmaq məqsədilə istifadə edirlər.

Sosial şəbəkələrin çatışmazlıqlarının çox olmasına baxmayaraq, bəzi yeniyetmələr sosial şəbəkələrdən bacarıqla istifadə etməklə onların müsbət tərəflərini də kəşf edə bilərlər. Hamıya məlum olduğu kimi, məhz sosial şəbəkələr sayəsində böyük və uzaq məsafələr artıq insanlar üçün maneə rolunu oynamır və kommunikasiya zamanı əksinə, insanlara bir-birilə ünsiyyət yaratmaqda kömək edir. Bundan əlavə, öz maraqlarına uyğun ünsiyyət quracağın insanları tapmaq, dostlaşmaq, özünügerçəkləşdirmək və özünüqiymətləndirməni artırmaq üçün də sosial şəbəkələr əlverişli yerlərdən biridir. Yeniyetmələr burada özlərinə lazım olan informasiyanı asanlıqla əldə edə bilər, elmi istiqamətləri qruplara qoşularaq öz maraqlarına uyğun məlumatlar əldə edə bilərlər ki, bu da onların dünyagörüşünün formalaşmasına əhəmiyyətli göstərər [1, s. 49]. Həmçinin eyni zamanda gənclər sosial şəbəkələr üzərindən onlayn alış-veriş platformasi (kitablar, əl işləri, ikinci əl əşyalar, xaricdən gətirilən müəyyən geyim və aksesuarlar) həyata keçirirlər, ailənin kommunal borclarını bilavasitə internet üzərindən ödəyirlər.

Yuxarıda deyilənləri yekunlaşdıraraq bunu da qeyd etmək vacibdir ki, sosial şəbəkələrin yeniyetmələrin formalaşmasına təsirinin mənfi olmasını yüz faiz əminliklə demək olmaz. Eyni zamanda da onun müsbət olması haqqında da fikir yürütmək birmənalı olar. Sadəcə bir şey aydındır ki, sosial şəbəkələrin yeniyetmələrə təsirini inkar etmək və onları bu təsirdən qorumaq üçün valideynlərin nəzarəti mütləqdir. Əks-halda, yeniyetmə hansısa dini sekta, terrorçu qrup, pis vərdişli insanlar yaxud narkomanın təsiri altına düşə bilər. Digər tərəfdən həddən ziyada sosial şəbəkələrdə olmaq uşaqları təhsildən yayındırıb, avaraçılığa da sövq edə bilər. Buna görə də azyaşlı uşaqlar ailə üzvlərinin kəskin nəzarəti altına alınmalıdır. Sosial şəbəkələr həyatımıza "dünən" daxil olsa da, onun ayrılmaz hissəsinə çevriliblər. Bu isə o deməkdir ki, yeniyetmələrin sosializasiyası prosesində onun təsirini inkar etmək yolverilməzdir.

**Məqalənin aktuallığı.** Hazırkı dövrdə sosial şəbəkələrin cəmiyyətimizdə gündən-günə artan rolunu və yeniyetmələrin buna xüsusi marağını, eləcə də sosial şəbəkələrin bir sıra hallarda yarada biləcək zərərli, neqativ halları nəzərə alsaq, onda məqaləni aktual hesab edə bilərik.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə sosial şəbəkələrin

yeniyetmələrin sosializasiyasına göstərdiyi təsiri öyrənmək üçün aparılan sosioloji tədqiqatın nəticələrindən istifadə olunmuşdur.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar, eləcə də sosioloqlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası üzrə Minilliyin İnkişaf Məqsədlərinin göstəriciləri // http://www.stat.gov.az/
2. Барнс Джеймс. «Классы и собрания в норвежском островном приходе» / Джеймс Барнс // 1954.
3. Возвахова Л. Социальные сети: друзья или враги? // Служба кадров и персонал , 2009, № 2
4. Кузнецов П. Социальная зависимость: о пользе и вреде соц. сетей // PR в России, 2008, № 1
5. Юрьева Е. А., Горошкина С. А. Разностороннее влияние социальных сетей интернета на социализацию молодежи // Молодой ученый, 2010, № 7
6. http://gencalim.az/gencler-ve-idman/143-sosial-shebekelerin-genclere-tesiri.html

**Х. Кулиева**

## Роль социальное сети в формировании несовершеннолетних

## Резюме

В статье рассказывается о роли социальной сети в современном мире и в формировании несовершеннолетних. В связи с этом обсуждается итоги социологической исследовании, проводимой по этому вопросу.

**H. Guliyeva**

## Role of the social nets in forming of the juveniles

## Summary

In the article in our modern world and is talked there in forming of the juveniles from role of social nets. Other sociology carried out connected with this is discussed results of the investigation.

**Redaksiyaya daxil olub:** 02.11.2018